**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 2**

**Bakı şəhəri** **18 yanvar 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Məryəmxanım Elman qızı İsayevanın Balakən Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il dekabr ayının 20-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd İsayeva Məryəmxanım Elman qızı Balakən Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il sentyabr ayının 06-da elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il dekabr ayının 20-də Dövlət Statistika Komitəsinin Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Mətanət Səmədzadə və müstəqil ekspert Qabil Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. İsayeva Məryəmxanım Elman qızına müsahibə komissiyasının üzvlərinin hər biri tərəfindən 14 bal verilmiş və nəticədə iştirakçı 14 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 22.12.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. İsayeva Məryəmxanım Elman qızının 22 dekabr 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Balakən Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il dekabr ayının 20-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: